MahadSunnah

خصائص شهر ذي القعدة

Zul Qadə ayının xüsusiyyətləri

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

ذو القعدة

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allah ﷻ ayları bir-birindən fəzilətli etdi.

قال تعالى: ﴿وَرَبُّكَ يَخۡلُقُ مَا يَشَآءُ وَيَخۡتَارُ﴾ [القَصَص : ٦٨]

"Rəbbin istədiyini yaradır və (istədiyini də peyğəmbər) seçir".[1]

Allahın ﷻ fəzilət verdiyi aylardan biri də Zul Qadə ayıdır. O hicri təqviminin 11-ci ayıdır.

Ərəblər bu aya hörmət edərək və Zilhiccə ayında Həcc ziyarətinə hazırlaşaraq orada döyüşməkdən uzaq durduqlarına görə belə adlandırılıb.

Bu ayın xüsusiyyətlərindən biri də, haram aylarının başlanğıcı olmasıdır.

قال تعالى: ﴿إِنَّ عِدَّةَ ٱلشُّهُورِ عِندَ ٱللَّهِ ٱثۡنَا عَشَرَ شَهۡرٗا فِي كِتَٰبِ ٱللَّهِ يَوۡمَ خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَ مِنۡهَآ أَرۡبَعَةٌ حُرُمٞۚ ذَٰلِكَ ٱلدِّينُ ٱلۡقَيِّمُۚ فَلَا تَظۡلِمُواْ فِيهِنَّ أَنفُسَكُمۡ﴾ [التَّوْبَة : ٣٦]

"Həqiqətən, Allah yanında ayların sayı on ikidir. (Bunu) da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır. Doğru din budur. Odur ki, bu aylarda özünüzə zülm etməyin".[2]

---

[1] əl-Qasas surəsi, 68-ci ayə
[2] ət-Tovbə surəsi, 36-cı ayə

Ərəblər həcc ziyarətinə gedən insanların təhlükəsizliyi üçün bu ayı haram hesab etmişlər.

İslam dini gəldikdə isə bu ayın haramlığına döyüşə başlamağın haram olmasını əlavə etmişdir.

Eləcə də zülümün başqa aylarda haram olmasına baxmayaraq, bu ayın hörmətini uca tutmaq və bu ayda edilən günahları şiddətləndirmək üçün zülümü də bu ayda haram etmişdir.

Bu ayın xüsusiyyətlərindən biri də, bu ayın həcc aylarından biri olmasıdır.

Həcc etmək istəyən bu aydan niyyət etməlidir.

قال تعالى: ﴿ٱلْحَجُّ أَشْهُرٌ مَّعْلُومَٰتٌۚ فَمَن فَرَضَ فِيهِنَّ ٱلْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِي ٱلْحَجِّ﴾ [البَقَرَةِ : ١٩٧]

"Həcc (ziyarəti) məlum olan aylardadır. Bu aylarda həcci yerinə yetirməyi niyyət edən kəs həcc (ziyarəti) əsnasında (qadınıyla) yaxınlıq etməməli, günah işlər görməməli və mübahisələrə qoşulmamalıdır".[3]

Bu ayın xüsusiyyətlərindən biri də, Peyğəmbərin ﷺ bu ayda dörd dəfə ümrə etməsidir.

---

[3] əl-Bəqərə surəsi, 197-ci ayə

Ənəsdən (Allah ondan razı olsun) gələn hədisdə buyrur:

“Peyğəmbər ﷺ həcc ziyarətində olan ümrəsi istisna olmaqla, dörd dəfə ümrə etdi. Bunların hamısı Zulqidə ayında baş verdi”.[4]

İmam Nəvəvi (Allah ona rəhmət eləsin) buyurub:

“Peyğəmbərin ﷺ bu ayda ümrə etməsinin səbəbi, həm bu ayın fəzilətinə görədir. Həm də Cahillərə müxalif olmaq üçündür. Çünki cahillər haram aylarında ümrə etməyi ən pis günalardan sayırdılar”.[5]

---

[4] Buxari və Muslim

[5] Şərhu Muslim lin-Nəvəvi 8/235